Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi

Azərbaycan Milli
Kitabxanası



# “Heydər Əliyev İli” və kitabxanalar

Bakı-2023

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi

Azərbaycan Milli Kitabxanası

# “Heydər Əliyev İli” və kitabxanalar

*Respublikanın kütləvi və ixtisaslaşdırılmış kitabxanaları, Mərkəzləşdirilmiş Kitabxana Sistemləri üçün metodik tövsiyələr*

**BAKI – 2023**

**Tərtibçi:** **A.Z.Koçak**

**İxtisas redaktoru və buraxılışa məsul:** **K.M.Tahirov**
*Professor, Əməkdar mədəniyyət işçisi*

**“Heydər Əliyev İli” və kitabxanalar**: metodik tövsiyələr /tərt. A.Z.Koçak; ixtis. red. və bur. məs. K.M.Tahirov.- Bakı, 2023.- 56 s.

**© Azərbaycan Milli Kitabxanası, 2023**

# Tərtibçidən

2023-cü ildə Azərbaycan dövlətçilik tarixində müstəsna xidmətləri olan görkəmli ictimai-siyasi, dövlət xadimi, Azərbaycan xalqının Ümummilli lideri Heydər Əlirza oğlu Əliyevin 100 illik yubileyi tamam olur.

Heydər Əliyevin zəngin həyat yolu və müstəsna fəaliyyətinin bütün mərhələləri bir-birini tamamlamış, öz xalqına sıx bağlılığın, milli dövlətçilik məfkurəsinə sadiqliyin canlı təcəssümü olmuşdur. Geniş bilik və dərin təfəkkür sahibi olan Heydər Əliyev düşünülmüş və cəsarətli qərarları ilə təkcə müstəqillik dövründə deyil, bütün dövrlərdə Azərbaycan ictimaiyyətini ən ciddi şəkildə düşündürən məsələləri uğurla həll etmişdir.

Ulu Öndər cəmiyyət həyatının müxtəlif sahələri arasında üzvi bağlılığı aydın görərək, müəllifi olduğu milli inkişaf strategiyasında ictimai, siyasi, sosial, iqtisadi, mədəni və digər sahələrdə qarşıda duran vəzifələri düzgün müəyyənləşdirmiş və məharətlə həyata keçirmişdir. Heydər Əliyevin milli neft strategiyasının uğurla reallaşdırılması nəticəsində xalqımız öz təbii sərvətlərinin tam sahibinə çevrilmiş və qısa müddətdə ölkəmizin inkişafına güclü təkan verən resurslar əldə edilmişdir.

Azərbaycan Respublikasının ilk Konstitusiyasının qəbul olunması və bütün sferaları əhatə edən köklü islahatların həyata keçirilməsi, demokratik, hüquqi dövlət quruculuğu, nizami ordunun yaradılması Heydər Əliyevin Azərbaycan xalqı qarşısında müstəsna xidmətləridir.

Xalqımızı vahid amal ətrafında birləşdirən azərbaycançılıq ideologiyasının formalaşdırılması, ana dilinin dövlət qayğısı ilə əhatə olunması, ictimai-siyasi, elmi və mədəni fikir tariximizin əlamətdar hadisələrinin müntəzəm qeyd edilməsi ənənəsinin yaradılması,

Azərbaycanın çoxəsrlik mənəvi-mədəni irsə sahib qədim diyar və sivilizasiyaların qovşağında yerləşən tolerantlıq məkanı kimi geniş şöhrət qazanması Heydər Əliyevin mükəmməl quruculuq proqramının tərkib hissələri olmuşdur.

Dahi şəxsiyyətin irsinin təbliğ olunması kitabxanaların qarşısında duran əsas vəzifələrdən biridir.

Ulu Öndərin 100 illik yubileyi münasibətilə hazırlanmış metodik vəsaitdə Heydər Əliyevin həyatı və ictimai-siyasi fəaliyyəti, "Müstəqil Azərbaycanda kitabxana quruculuğunun banisi" adlı məqalə, kitabxanalarda Heydər Əliyev irsinin təbliği ilə əlaqədar tövsiyələr, "Əlavələr" bölməsində isə Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi haqqında", "Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi ilə bağlı Tədbirlər Planının təsdiq edilməsi haqqında" sərəncamları, "Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi ilə bağlı Tədbirlər Planı", həmçinin Ulu Öndərin kitab və kitabxana haqqında müdrik kəlamları, dünyanın və Azərbaycanın görkəmli elm, mədəniyyət və siyasi xadimlərinin Ümummilli lider haqqında söylədikləri fikirlər və s. məlumatlar verilmişdir.

Nəşrlə bağlı rəy və təkliflərini Milli Kitabxanaya ünvanlayan mütəxəssislərə, oxuculara əvvəlcədən öz minnətdarlığımızı bildiririk.

**Ünvan:** AZ-1000 Bakı şəh., Xaqani küç. 57.
**E-mail:** anl.metodikixidmet@yandex.ru
http://www.millikitabxana.az/onlineservices/methodical-services
**URL:** www.millikitabxana.az

## Azərbaycan xalqının Ümummilli lideri Heydər Əlirza oğlu Əliyev

Dünya şöhrətli siyasətçi, müstəqil Azərbaycan dövlətinin xilaskarı, Ümummilli liderimiz Heydər Əlirza oğlu Əliyev 1923- cü il may ayının 10-da Azərbaycanın Naxçıvan şəhərində anadan olmuşdur. 1939-cu ildə Naxçıvan Pedaqoji Texnikumunu bitirdikdən sonra Azərbaycan Sənaye İnstitutunun (indiki Azərbaycan Dövlət Neft və Sənaye Universiteti) memarlıq fakültəsində təhsil almış, lakin başlanan müharibə ona təhsilini başa çatdırmağa imkan verməmişdir.

Heydər Əliyev 1941-1944-cü illərdə Naxçıvan MSSR Xalq Daxili İşlər Komissarlığında və Naxçıvan MSSR Xalq Komissarları Sovetində müxtəlif məsul vəzifələrdə çalışmışdır. 1944- cü ildə dövlət təhlükəsizliyi orqanlarında işə göndərilmişdir. Bu dövrdən təhlükəsizlik orqanları sistemində çalışaraq 1964-cü ildən Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizliyi Komitəsi sədrinin müavini, 1967-ci ildən isə sədri vəzifəsində işləmiş, general-mayor rütbəsinə qədər yüksəlmişdir. Həmin illərdə o, Leninqrad şəhərində (indiki Sankt-Peterburq) xüsusi ali təhsil almış, 1957-ci ildə isə Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) tarix fakültəsini bitirmişdir.

Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin 1969-cu il iyul plenumunda Heydər Əliyev Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi seçilərək respublikanın rəhbəri olmuşdur.

1982-ci ilin dekabrında Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun üzvü seçilən Heydər Əliyev SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə təyin edilmiş və SSRİ-nin rəhbərlərindən biri olmuşdur.

Heydər Əliyev iyirmi il ərzində SSRİ Ali Sovetinin deputatı, beş il isə SSRİ Ali Soveti sədrinin müavini kimi fəaliyyət göstərmişdir. Görkəmli dövlət xadimi 1987-ci ilin oktyabrında Sovet İttifaqı Kommunist Partiyası MərkəziKomitəsi Siyasi Bürosunun və şəxsən baş katib Mixail Qorbaçovun yeritdiyi siyasi xəttə etiraz əlaməti olaraq, tutduğu vəzifələrdən istefa etmişdir.

O, 1990-cı ilin 20 yanvarında sovet qoşunlarının Bakıda törətdiyi qanlı faciə ilə əlaqədar, ertəsi gün Azərbaycanın Moskvadakı nümayəndəliyində bəyanatla çıxış edərək, Azərbaycan xalqına qarşı törədilmiş cinayətin təşkilatçıları və icraçılarının cəzalandırılmasını tələb etmişdir. Dağlıq Qarabağda yaranmış kəskin münaqişəli vəziyyətlə bağlı SSRİ rəhbərliyinin ikiüzlü siyasətinə etiraz əlaməti olaraq, 1991-ci ilin iyulunda Sovet İttifaqı Kommunist Partiyasının sıralarını tərk etmişdir.

1990-cı ilin iyulunda Azərbaycana qayıdan Heydər Əliyevilk əvvəl Bakıda, sonra isə Naxçıvanda yaşamış, həmin ildə də Azərbaycan Ali Sovetinə deputat seçilmişdir. 1991-1993-cü illərdə Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin sədri, Azərbaycan Respublikası Ali Soveti sədrinin müavini olmuşdur.

Heydər Əliyev 1992-ci ildə Yeni Azərbaycan Partiyasının Naxçıvan şəhərində keçirilmiş təsis qurultayında partiyanın sədri seçilmişdir.

1993-cü ilin may-iyun ayında hökumət böhranının son dərəcə kəskinləşməsi ilə ölkədə vətəndaş müharibəsinin baş verməsi və müstəqilliyin itirilməsi təhlükəsi yarandıqda Azərbaycan xalqı Heydər Əliyevin hakimiyyətə gətirilməsi tələbi ilə ayağa qalxmışdı. Azərbaycanın o zamankı rəhbərləri Heydər Əliyevi rəsmən Bakıya dəvət etməyə məcbur olmuşdular və o, 1993-cü il iyun ayının 15-də Azərbaycan Ali Sovetinin sədri seçilmiş, iyun ayının 24-də isə Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası

Prezidentinin səlahiyyətlərini həyata keçirməyə başlamışdır.

Heydər Əliyev 1993-cü il oktyabrın 3-də ümumxalq səsverməsi nəticəsində Azərbaycan Respublikasının Prezidenti seçilmişdir. 1998-ci il oktyabr ayının 11-də xalqın yüksək fəallığı şəraitində keçirilən seçkilərdə səslərin 76,1 faizini toplayan Ulu Öndər yenidən Azərbaycan Respublikasının Prezidenti seçilmişdir.

Azərbaycanın görkəmli ictimai-siyasi xadimi, Ulu Öndər Heydər Əlirza oğlu Əliyev 2003-cü il dekabr ayının 12-də Amerikanın Ohayo ştatında Klivlend klinikasında vəfat etmişdir.

Ümummilli lider Bakıda Fəxri Xiyabanda dəfn edilmişdir.

# Müstəqil Azərbaycanda kitabxana quruculuğunun banisi

Azərbaycan xalqının böyük oğlu, Ulu Öndər Heydər Əliyev bu gün böyük sürətlə inkişaf edən və çox qısa zaman ərzində dünyanın inkişaf etmiş ölkələri sırasına çıxan müasir Azərbaycanın yaradıcısı və memarı olmaqla dövlətimizin və ölkəmizin tarixinə öz adını əbədi olaraq həkk etmişdir. Heç də təsadüfi deyildir ki, bu gün biz Ulu Öndər Heydər Əliyevin adını Azərbaycan mədəniyyətinin hamisi və milli-mənəvi dəyərlərimizin təəssübkeşi kimi yad edirik.

Azərbaycançılıq ideyasını dövlət siyasəti səviyyəsinə qaldıran Ulu Öndərin rəhbərliyi ilə hələ ötən əsrin 70-80-ci illərində milli mədəniyyətimizin inkişafi istiqamətində ciddi addımlar atılmışdır. Böyük şəxsiyyət mədəniyyətimizin və ədəbiyyatımızın intibah dövrünü yaşamasına nail ola bilmişdir. Belə ki, həmin illərdə Azərbaycan mədəniyyətinin yüksək inkişaf səviyyəsinə çatmasında Qara Qarayev, maestro Niyazi, Rəşid Behbudov, Müslüm Maqomayev, Fikrət Əmirov, Tahir Salahov, Toğrul Nərimanbəyov, Arif Məlikov və digər dünya şöhrətli korifey sənətkarlarımızın yetişməsində Heydər Əliyevin böyük xidmətləri olmuşdur. Mədəniyyətimizin bütün istiqamətlərinin, o cümlədən kitabxana sahəsinin inkişafı və müstəqilliyin yaratdığı geniş imkanlar çərçivəsində təkmilləşməsi də Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. Müstəqilliyimizin ilk illərində kitabxanaların normal yaşayıb fəaliyyət göstərməsi üçün normativ-hüquqi bazanın formalaşdırılması, genişmiqyaslı özəlləşdirmə proqramı çərçivəsində kitabxanaların binalarının zəbt olunması və qiymətli kitab fondlarının məhv olmaq təhlükəsindən xilas edilməsi kimi taleyüklü məsələlərin həllində Heydər Əliyevin xüsusi xidmətləri vardır.

XX əsrin 90-cı illərində "Kitabxana işi haqqında" Azərbaycan

Respublikası Qanununun və bu qanuna müvafiq normativ-hüquqi aktların qəbul edilməsi məhz Heydər Əliyevin adı ilə bağlı olmuş və bilavasitə onun rəhbərliyi altında həyata keçirilmişdir. “Kitabxana işi haqqında” Azərbaycan Respublikası Qanununa kitabxanaların əmlakının, fondlarının və statusunun, xüsusilə onların sovet dövründə yerləşdikləri binalarının mühafizəsi məqsədilə bir sıra maddələrin daxil edilməsi məhz Azərbaycana rəhbərlik etdiyi bütün dövrlərdə kitaba və kitabxanaya böyük dəyər verən Ulu Öndər Heydər Əliyevin göstərişi və tövsiyələri əsasında həyata keçirilmişdir. Çox təəssüflər olsun ki, 1990-cı illərin əvvəllərindəki Milli Şurada bir sıra deletant “millət vəkilləri”nin təkidi ilə həmin qanun layihəsində kitabxanaların əmlakının mühafizəsi məqsədilə nəzərdə tutulan maddələrin çıxarılmasına da nail olunmuşdu və qanunun qəbulundan dərhal sonra Bakıda və digər şəhər və rayonlarda mədəniyyət ocaqlarına, onların sovet dövründə “guya qanunsuz yerləşdikləri” binalarına hücumlar edilmişdi. Hətta bir sıra rayon kitabxanalarının qiymətli kitab fondlarını küçələrə tökmək xülyası ilə yaşayanlar da peyda olmuşdular. O vaxtlar qəbul olunan “Dövlət əmlakının özəlləşdirilməsi haqqında” qanunu əllərində şirma kimi tutanlar kitabxanalara, muzeylərə və digər mədəniyyət ocaqlarına hücumlara başlamışdılar. Belə təhlükəli anda 1998-ci ilin sonunda məhz Ulu Öndərin göstərişi ilə ayrıca özəlləşdirilməsi qadağan olunan obyektlərin siyahısı təsdiq olundu ki, bu obyektlərin də 85 faizini mədəniyyət müəssisələri təşkil edirdi. Ulu Öndərin bu çox ciddi fərmanı ilə mədəniyyət müəssisələrinin, xüsusilə də kitabxanaların “hərraca qoyulması”nın qarşısı alındı, qiymətli kitab fondlarının dağıdılması hallarına son qoyuldu. 1998-2000-ci illərdə Heydər Əliyevin ciddi tapşırığı ilə Nazirlər Kabineti Milli Kitabxananın və sahəvi elmi kitabxanaların, rayon və şəhər kitabxanalarının statusu və əsasnamələrinin təsdiqi, fondlarının uçotu

və mühafizəsi haqqında qərarlar qəbul etdi. Bütün bunları mədəniyyətimizə, milli-mənəvi dəyərlərimizə, kitaba və kitabxanaya yüksək dəyər verən müdrik şəxsiyyət həyata keçirə bilərdi.

Azərbaycan kitabxanalarının flaqmanı, milli-mənəvi dəyərlərimizin etibarlı saxlanc yeri və tarixi yaddaşımız hesab olunan Milli Kitabxananın müasir dövrün tələblərinə uyğun inkişafı və yenidən qurulması işlərinin bünövrəsi də 1990-cı illərin ikinci yarısında Ulu Öndərin rəhbərliyi altında, bilavasitə onun iştirakilə həyata keçirilmişdir. Milli Kitabxananın Əsasnaməsinin təsdiqi, ona bütün fondlarının və əmlakının toxunulmazlığını təmin edən yüksək milli statusun müəyyənləşdirilməsi, binasının istifadəyə verildiyi 62 il ərzində ilk dəfə tam şəkildə yenidən qurulması layihəsinin reallaşdırılması, fondunun zənginləşdirilməsi məsələləri də bilavasitə Heydər Əliyevin şəxsi göstərişi və rəhbərliyi ilə həyata keçirilmişdir. 10 illik prezidentliyi dövründə 4 dəfə Milli Kitabxanaya gəlişi ilə bu elm məbədinə bir yenilik, yeni bir ab-hava gətirən Ulu Öndər bu kitabxananı yüksək qiymətləndirərək demişdir: “Mədəniyyət mərkəzlərindən biri olan M.F.Axundov adına Kitabxanaya gəlmişik. Kitabxana xalq üçün, millət üçün, cəmiyyət üçün müqəddəs bir yer, bilik, mənəviyyat və zəka mənbəyidir. Buna görə kitabxanaya daim hörmət xalqımızın mədəniyyətini nümayiş etdirən faktorlardan biridir. Mən vaxtilə də bu kitabxanaya dəfələrlə gəlmişəm. Ancaq bu gün bu kitabxananın astanasından keçərkən çox böyük hörmət və ehtiram hissi keçirirəm və kitabxanaya, burada çalışan insanlara, burada toplanan kitablara öz hörmətimi, ehtiramımı bildirmək istəyirəm”. Bu dahiyanə fikirlər bu gün də kitaba, kitabxanaya, Milli Kitabxanaya və onun Azərbaycan mədəniyyətinin inkişafındakı danılmaz roluna ən yüksək qiymətdir. Bu qiymətli fikirləri yalnız kitaba, mütaliəyə, kitabxanaya yüksək dəyər verən dahi şəxsiyyət söyləyə bilərdi.

Müasir dövrdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə Milli Kitabxananın fəaliyyətinin müasir dövrün, zamanın tələblərinə uyğun olaraq yenidən qurulması və daha da təkmilləşdirilməsi, kitabxana-informasiya xidmətinin tam avtomatlaşdırılması, innovasiyaların oxucuların informasiya təminatı proseslərinə tətbiqi və Azərbaycanın bütün dünyaya tanıdılması sahəsində görülən bütün işlərin təməlində də məhz Ulu Öndər Heydər Əliyevin ötən əsrin 90-cı illərində kitabxana işi sahəsində böyük uzaqgörənliklə həyata keçirdiyi inqilabi tədbirlər durur.

Ölkəmizin məlum pandemiya təhlükəsi ilə üz-üzə qaldığı, müəssisələrin fəaliyyətinin dayandırıldığı, insanların evdə qalaraq virus təhlükəsindən qorunmağa çalışdığı bir vaxtda Milli Kitabxana öz oxucularının yanında qalaraq onlayn formatda oxuculara kitabxana-informasiya xidmətini davam etdirir. Bütün bunlar məhz innovasiyaların və yeni iş üsullarının, müasir texnologiyaların kitabxana işinə müvəffəqiyyətlə tətbiqi nəticəsində mümkün olmuşdur. Bu müasir texnologiyaların Azərbaycan Milli Kitabxanasının fəaliyyətinə tətbiqinin ilk bünövrəsi də 1999-2000-ci illərdə məhz Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuşdur. Bu dövrdə Ərazilərin Bərpası və İnkişafı Agentliyinin və Yaponiya Hökümətinin Azərbaycan hökümətinə çox böyük məbləğdə ayırdığı qrantların məhz Axundov adına Respublika Kitabxanasına verilməsinin təşəbbüskarı da Ulu Öndər Heydər Əliyev olmuşdur. Yeri gəlmişkən qeyd edim ki, 1999-cu ilin dekabrında həmin qrantların hansı təşkilatlara verilməsi barədə təkliflərin müzakirə olunduğu müşavirədə Ulu Öndərin həmin vaxtlarda Baş Nazirin müavini işləyən şəxsə xitabən dediyi bu sözlər indi də mənim xatirimdədir: “Siz Axundov kitabxanasını götürün, “Azərenerji” də, Bakı Şəhər İcra Hakimiyyəti də özləri pul taparlar!” Bu dahiyanə fikir hər şeyi həll etmiş oldu. Bax, bu idi dahi və müdrik şəxsiyyət

olan Heydər Əliyev dühası, onun kitab və kitabxana sevdasının yüksək nümunəsi!

Həmin dövrdə möhkəm təməli qoyulan, Ulu Öndərin gözəl ideyalarını və əməllərini böyük uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti möhtərəm İlham Əliyevin qərarları və müdrik göstərişləri sayəsində gündən-günə inkişaf edən və modernləşən Milli Kitabxanamız pandemiya təhlükəsi ilə əlaqədar elan olunmuş ciddi karantin rejimi şəraitində daim öz oxucularının yanında olaraq onlara kitabxananın saytının "Elektron kataloq və elektron kitabxana" və "Onlayn xidmətlər" bölmələri vasitəsilə virtual rejimdə xidmət göstərməkdə davam edir. Bir ildən çox davam edən karantin dövründə Milli Kitabxana 3 milyondan artıq oxucuya onlayn rejimdə kitabların elektron çatdırılmasını həyata keçirmişdir.

Ulu Öndər Heydər Əliyevin müstəqillik dövründə Azərbaycanda kitabxana quruculuğunun inkişafına, xüsusilə Azərbaycan Milli Kitabxanasının fəaliyyətinin müasir dövrün tələblərinə uyğun yenidən qurulmasına, xidmət proseslərinin avtomatlaşdırılmasına və modernləşdirilməsinə verdiyi töhfələri, bu kitabxananın fəaliyyətinə və əməkdaşlarının əməyinə verdiyi yüksək qiyməti layiqincə dəyərləndirən Milli Kitabxananın kollektivi 2020-ci ildə kitabxananın foyesində xalqımızın böyük oğlunun adına layiq bir gözəl guşə yaratmışdır. Həmin guşədə Ulu Öndərin bir vaxtlar Milli Kitabxanaya gələrkən bu elm məbədinə öz şəxsi kitabxanasından bağışladığı 300 nüsxədən artıq kitab nümayiş olunur, bu guşə oxucularımızın və kitabxanamızın qonaqlarının ən çox müraciət etdikləri, həvəslə tanış olmaq istədikləri bir məkana çevrilmişdir.

Xalqımızın böyük oğlu, dahi azərbaycanlı, memarı olduğu müasir Azərbaycanın çiçəklənən və firavan yaşayan bir ölkəyə çevilməsini daim arzulayan, doğma Qarabağ torpaqlarının erməni işğalından azad olunacağına ürəkdən inanan Heydər Əliyevin bu gün

ruhu şaddır, çünki onun işıqlı ideyalarını və əməllərini çox böyük uğurla davam etdirən layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev xalqın böyük oğlu və xilaskarı Heydər Əliyevin ən böyük arzusunu və müqəddəs vəsiyyətini, eləcə də 44 günlük Vətən müharibəsində tarixi zəfər çalaraq həm atası, həm də canından çox sevdiyi vətəni qarşısında öz oğulluq borcunu şərəflə yerinə yetirmişdir.

Əgər XX əsrin sonlarında Ulu Öndər Heydər Əliyevi Ulu Tanrı Azərbaycana xalqı qandan-xatadan, ölkəni isə vətəndaş müharibəsindən qurtaran bir xilaskar kimi göndərmişdisə, XXI əsrin əvvəllərində Ulu Tanrı cənab İlham Əliyevi Azərbaycan xalqının 30 ildən bəri davam edən doğma torpaqlarının erməni işğalından azad olunmasını gerçəkləşdirən ikinci bir xillaskar kimi xalqına bəxş etmişdir! Bunun üçün Azərbaycan xalqı, bütün dünya azərbaycanlıları həmişə Ulu Tanrıya səcdə edəcək və minnətdar olacaqdır!

**Kərim TAHİROV,**
*Azərbaycan Milli Kitabxanasının direktoru,*
*Əməkdar mədəniyyət işçisi, professor*

## Heydər Əliyev irsinin təbliğində kitabxanaların rolu

Heydər Əliyevin geniş ictimai-siyasi və eləcə də elmi-nəzəri irsinin dərindən öyrənilməsi xalqın maddi-mənəvi sərvətlərinin toplayıcısı, qoruyucusu olan kitabxanaların qarşısında duran ən vacib vəzifələrdən biridir. Cəmiyyətdə böyüməkdə olan yeniyetmə və gənc nəsli milli-mənəvi, əxlaqi dəyərlərimiz ruhunda tərbiyə edən zaman Ulu Öndərimizin şəxsiyyətinə, onun fenomenal irsinə müraciət edilməsi, dahi liderin özünün və ona həsr olunan əsərlərdən faydalanmaları böyük əhəmiyyət kəsb edir.

Ümumiyyətlə, istər yubiley ili çərçivəsində, istərsə də qarşıdakı illərdə Heydər Əliyevin zəngin siyasi və ictimai irsinin, dövlətçilik fəlsəfəsinin dərindən öyrənilməsi və geniş təbliğ olunması məqsədilə müfəssəl və məzmunlu tədbirlər planı hazırlamaq və bu plandan irəli gələn bir sıra kütləvi tədbirlərin həyata keçirilməsi tövsiyə olunur:

- Ümummilli lider Heydər Əliyevin əsərlərinin, onun haqqında olan ədəbiyyatın fondda komplektləşdirilməsi, soraq-biblioqrafiya aparatında və elektron kataloqda yerləşdirilməsi;
- Elektron məlumat bazaları, virtual sərgilərin hazırlanması;
- Kitab sərgiləri, fotostendlər, videoçarx, kitabxana plakatı, kitabxana albomları və guşələrin hazırlanması;
- Lektoriya, vebinar, onlayn metodik mühazirə-məsləhətlər, kitab təqdimatları və film nümayişlərinin təşkili;
- Müsabiqə, buktreyler, buk-slem, kvest və virtual turların (ekskursiya) təşkili;
- Daycest və veblioqrafiyaların hazırlanması, anket-sorğuların keçirilməsi.

İlk növbədə kitabxanaçılara Azərbaycan xalqının milli sərvəti

hesab olunan Heydər Əliyev irsi haqqında nəşrlərin kitab fondlarında yerləşdirilməsinə xüsusi diqqətlə yanaşaraq ədəbiyyatı ardıcıl komplektləşdirmək, onlar haqqında bütün məlumatları ənənəvi soraq-biblioqrafiya aparatında, həmçinin, elektron kataloqda əks etdirmək və həmin nəşrlərdən oxucuların istifadə etmələrinə şərait yaratmaq lazımdır. Bunun üçün hər bir kitabxanaya özünün əlifba və sistemli oxucu kataloqlarında və kartotekalarda, eləcə də elektron kataloqda Ümummilli lider Heydər Əliyevin həyatı, ictimai-siyasi fəaliyyətini özündə əksetdirən xüsusi rubrikalar hazırlamaları tövsiyə olunur.

Kitabxanaçılar Ulu Öndərin əbədi milli örnək hesab olunan irsinin geniş oxucu kütləsi arasında təbliği zamanı yalnız Mərkəzi Kitabxana və ya filial kitabxanaların deyil, bir sıra iri kitabxanaların zəngin fondlarında mühafizə olunan dəyərli kitabları da nəzərdən keçirməlidirlər. Bu baxımdan bütün region kitabxanaları üçün metodik mərkəz hesab edilən Azərbaycan Milli Kitabxanasının fondu, elektron kataloq və elektron resurslarından yararlanmaq məsləhət görülür.

Azərbaycan Milli Kitabxanası Heydər Əliyevin ictimai-siyasi fəaliyyətindən, mədəniyyətimizin, milli-mənəvi dəyərlərimizin inkişafına göstərdiyi qayğıdan bəhs edən kitabxananın fondunda olan materiallar əsasında elektron resurslar – elektron kitablar hazırlamışdır.

İstifadəçilərin kitabxananın zəngin elektron resurslarından faydalanmaları üçün Milli Kitabxananın (www.millikitabxana.az) saytına daxil olmaları və açılan səhifədən **“E-kataloq və kitabxana”** bölməsini (http://ek.anl.az/search/query?theme=e-kataloq) seçmələri kifayətdir. Bölmədə Ulu Öndərin öz əsərləri və ona həsr olunan əsərlər əlifbaya uyğun (müəllifin soyadına görə – **Əliyev Heydər Əlirza oğlu** və yaxud **Əliyev Heydər**) yerləşdirilir.

İntranet (lokal) şəbəkəsində yerləşən nəşrləri isə Bakıya gəlmədən regionun mərkəzi kitabxanasına müraciət etməklə əldə etmək olar.

Belə ki, Milli Kitabxana oxuculara təqdim etdiyi virtual xidmət vasitəsilə rayon və şəhər MKS-lərinin fondunda olmayanÜmummilli liderin öz əsərlərindən və ona həsr olunan ayrı-ayrı kitablardan müəyyən hissənin, fəslin, eyni zamanda dövri və ardı davam edən nəşrlərdə, elmi əsərlərdə, məcmuələrdə dərc olunmuş məqalələrin elektron versiyasının yerlərə çatdırılmasını həyata keçirir.

Kitabxanaçılar Ulu Öndərin irsinin təbliği ilə bağlıkitabxananın fondunda olmayan nəşrlərin sifarişi üçün (ödənişsiz) www.millikitabxana.az saytına daxil olmaqla **"Onlayn xidmətlər"** bölməsində "Sənədlərin sifarişi və elektron çatdırılması" xidmətindən (https://www.millikitabxana.az/online-services/e-order) istifadə edə bilərlər.

Heydər Əliyev irsinin təbliği zamanı Ulu Öndərə həsr olunmuş **elektron məlumat bazaları**nın hazırlanması və keçirilən tədbirlər zamanı onlardan istifadə edilməsi məqsədəuyğun hesab olunur. Kitabxanaçılara dahi şəxsiyyətə həsr olunmuş elektron məlumat bazalarını hazırlayarkən Milli Kitabxananın fondunda olan materiallar əsasında hazırlanmış elektron kitablar, məqalələr, fotoşəkillər, audio və video materiallardan ibarət ***"Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyev"*** adlı elektron məlumat bazasından (http://anl.az/el/emb/H.Aliyev/index.htm) faydalanmaq tövsiyə olunur. Bütövlükdə Azərbaycan xalqının Ümummilli liderinin həyat və fəaliyyəti, əsərləri, müdrik kəlamları, təltifləri, mədəniyyətlə bağlı fərman və sərəncamları, çıxışları, məruzələri, nitqləri, həmçinin xatirəsinin əbədiləşdirilməsi ilə bağlı rəsmi sənədlər və digər məlumatları özündə əks etdirən elektron məlumat bazası əvəzolunmaz şəxsiyyət olan Heydər Əliyev irsinin tədqiqi və

təbliğində misilsiz mənbə rolunu oynamaqdadır.

*“Nitqlər”, “Video görüntülər”, “Fotoalbomlar” və “Heydər Əliyevin Milli Kitabxanaya hədiyyə etdiyi kitablar”*dan ibarət olan *“Heydər Əliyev Milli Kitabxanada”* bölməsində isə ulu öndərin Milli Kitabxananın timsalında Azərbaycan kitabxanalarına göstərdiyi qayğını bir daha aydın görmək olar. Bunun üçün yenə də kitabxanaçıların Milli Kitabxananın www.millikitabxana.az saytına daxil olmaları və açılan səhifədən **“E-məlumat bazası”** bölməsini (https://www.millikitabxana.az/databases/index) seçmələri kifayətdir. Qeyd edək ki, elektron məlumat bazaları tammətnlidir, mütəmadi olaraq materiallar əlavə olunur və yenilənir.

Ümummilli liderin 100 illik yubileyi ilə əlaqədar olaraq ənənəvi kitab sərgiləri ilə yanaşı, il boyu nümayiş olunacaq **virtual sərgilər** də hazırlamaq mümkündür. Virtual sərgiləri ənənəvi kitab sərgilərindən daha canlı, dinamik və rəngarəng olduğu üçün özünə daha çox oxucu cəlb edə bilir. Virtual sərgilərin digər üstünlüyü də ondadır ki, qısa zamanda sərginin tərtibatını dəyişmək, yeni kitabları daha tez daxil etmək olar.

Virtual sərgilərin yaradılması üçün ilk növbədə slaydlar hazırlanmalıdır:

❖ **Titul slayd**: sərginin başlığı: ***“Böyük strateq – Heydər Əliyev”***

❖ **Slayd 2.**

*Azərbaycan Respublikasında 2023-cü ilin “Heydər Əliyev İli” elan edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 29 sentyabr 2022-ci il //Azərbaycan.- 2022.- 30 sentyabr.- S.1; Azərbaycan müəllimi.- 2022.- 30 sentyabr.- S.2; Ədəbiyyat qəzeti.-*

*2022.- 1 oktyabr.- S.2.*
*http://www.anl.az/down/meqale/azerbaycan/2022/sentyabr/816491.htmv*

❖ **Slayd 3.**

*Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi ilə bağlı Tədbirlər Planının təsdiq edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 28 noyabr 2022-ci il //Azərbaycan.- 2022.- 29 noyabr.- S.1; Azərbaycan müəllimi.- 2022.- 2 dekabr.- S.2.*
*http://www.anl.az/down/meqale/azerbaycan/2022/noyabr/825616(meqale).pdf*

❖ **Slayd 4.**

*Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi ilə bağlı Tədbirlər Planı: Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 28 noyabr tarixli Sərəncamı ilə təsdiq edilmişdir //Azərbaycan.- 2022.- 29 noyabr.- S.2.*
*http://www.anl.az/down/meqale/azerbaycan/2022/noyabr/825619(meqale).pdf*

❖ **Slayd 5**. Mövzu üzrə kitabların (onların şəkilləri - üz qabığı, titul vərəqi, şəkilli səhifələri və ya biblioqrafik təsviri və qısa annotasiyaları ilə birgə) nümayişi.

- Ümummilli lider Heydər Əliyevin kitabları (Azərbaycan və digər dillərdə);

*Əliyev, H. Dinimiz xalqımızın milli-mənavi sərvətidir: 3*

*dildə: [nitqlər] /Heydər Əliyev; red. hey. A.Paşazadə [və b.]; nəşrə ön söz R.Əliyev; "İrşad" İslam Araşdırmaları Mərkəzi.- Bakı: [Əbilov, Zeynalov və oğulları], ["İrşad" mərkəzi], 1999.- 165, [1] s.*
*http://web2.anl.az:81/read/page.php?bibid=vtls000416865*

- Ümummilli lider Heydər Əliyev haqqında yazılan kitablar (Azərbaycan və digər dillərdə)

*Bəhrəmova, S. Heydər Əliyev və Azərbaycan Respublikasında din siyasəti: [monoqrafiya] /Sevil Ş. Bəhrəmova; elmi red. C.Cəfərov; Azərb. Resp. Təhsil Nazirliyi, Azərb. Dövlət Pedaqoji Un-ti.- Bakı: [Avropa], 2021.- 231, [1] s.*
*http://web2.anl.az:81/read/page.php?bibid=vtls000750641*

*Heydar Aliyev. Life and times 1923-2003: through an objective lens /G.editor V.Mustafayev, M.Agayev, M.Mammedov, S.Mustafayev; designer M.Allahverdiyev, R.Alimuradov; transl. B.Suleymanli, E.Haliyev, J.Pinkford; photogr. Azerbaijan State Archive, Heydar Aliyev Foundation AzerTAG, ANS-press; National Hero Chingiz Mustafayev Foundation.- Baku: ANS-Press publishing house, ANS Group of Companies, 2006.- 127, [2] p.*
*http://web2.anl.az:81/read/page.php?bibid=vtls000301369*

- Ümummilli lider Heydər Əliyev haqqında yazılan məqalələr

(Azərbaycan və digər dillərdə)

*Əliyev, S. Bəşəriyyətin Heydər Əliyev dühası /Seyfəddin Əliyev //Səs.- 2021.- 7 dekabr. - S.13.*
*http://www.anl.az/down/meqale/ses/2021/dekabr/769879(meqale).pdf*

*Великая миссия: Фонд Гейдара Алиева претворяет в жизнь намеченные общенациональным лидером планы //Азербайджанские известия.- 2019.- 11 мая.- С.1.*
*http://www.anl.az/down/meqale/azerizv/2019/may/651954.htm*

Nümayiş zamanı annotasiyalar səsli şəkildə və ya istənilən bir musiqinin müşayiəti ilə də təqdimoluna bilər. Bu slaydda həmçinin dövri mətbuat bölməsi yaradıb qəzet və jurnallarda Ümummilli liderə həsr olunmuş məqalələri də yerləşdirmək olar.

❖ **Slayd 6.** Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin kitab və kitabxana haqqında müdrik kəlamları

❖ **Slayd 7.** Ulu Öndərin xatirəsinin əbədiləşdirilməsi;
- ✓ Bu slaydda aşağıdakılar əks oluna bilər:
- ✓ *Xatirə sikkələri, markalar*
- ✓ *Heydər Əliyev Fondu*
- ✓ *Heydər Əliyev mərkəzləri*
- ✓ *Heydər Əliyev Sarayı*
- ✓ *HeydərƏliyev Beynəlxalq Hava Limanı*
- ✓ *Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan Neft Boru Kəməri*

- ✓ *Heydər Əliyev adına Bakı Dərin Özüllər Zavodu*
- ✓ *Heydər Əliyevin Xatirə muzeyləri, adını daşıyan parklar və abidələr, məktəb və liseylər və s.*

❖ **Slayd 8.** Kitabları oxumaq və ya daha yaxından tanış olmaq üçün kitabxananın ünvanı, əlaqə telefonları, saytı və e-mail ünvanı verilir.

Qeyd edək ki, slaydlar artırıla da bilər.

Milli Kitabxananın bu istiqamətdə hazırladığı virtual sərgilərlə (https://www.millikitabxana.az/projects/virtual-exhibition) də tanış ola bilərsiniz.

Məsələn,

- 10 may – Ümummilli lider Heydər Əliyevin doğum günü http://anl.az/el/vsb/Umummilli_lider_Heyder_Eliyevin_dogum_gunu/index.htm
- 12 dekabr – Ümummilli lider Heydər Əliyevin anım günü
- http://anl.az/el/vsb/Umummilli_lider_Heyder_Eliyev/index.htm
- Hamımıza yaxşı bəlli olan və Heydər Əliyevin ikinci dəfə - 1993-cü ilin 15 iyun tarixində siyasi hakimiyyətə gəlişi, nəinki Azərbaycanı, bütöv bir xalqı məhv olmaq təhlükəsindən xilas etməsi günü kimi qeyd etdiyimiz “15 iyun – Milli Qurtuluş Günü” http://anl.az/el/vsb/Milli_Qurtulus_Gunu/index.html

Yubiley çərçivəsində kitabxanaçılara görkəmli liderin həyatı, ictimai-siyasi fəaliyyəti ilə bağlı ***“Ulu Öndər Heydər Əliyev”, “Müstəqil Azərbaycanın qurucusu”, “Xalqın xilaskarı”, “Heydər Əliyev irsi: müstəqil dövlətçilik və müasirlik”, “Ümummilli lider”, “Heydər Əliyev ideyaları qalib gəlir”*** və s. başlıqlarda daimi **kitab**

**sərgiləri, fotostendlər, kitabxana plakatı, kitabxana albomları** hazırlanması məsləhət olunur.

Son illər kitabxana işi sahəsində kitab və mütaliəni cəmiyyət üzvləri arasında yaymaq üçün bir sıra yeni, standart olmayan iş formaları meydana gəlmişdir. Onlardan bəziləri kitabxana praktikasına daxil olsa da, bəziləri hələ də tətbiq olunmamışdır. Buna baxmayaraq mütaliə və kitab təbliği hər bir kitabxananın əsas faəliyyət istiqaməti olaraq qalır və əsasən gənc istifadəçiləri əhatə edir. Əgər kitab təbliğini marketinq vəzifəsi kimi düşünsək, məhz interaktiv iş formalarının seçilməsi əsas prioritet olacaqdır. Heydər Əliyev irsinin geniş oxucu kütləsi tərəfindən öyrənilməsi istiqamətində kitabxanaların həyata keçirə biləcəyi növbəti maraqlı və kreativ iş formalarına **buk-slem, kvest, vebinar, lektoriyaları** və s. aid etmək olar.

Yubiley tədbirləri çərçivəsində yerli və qeyri hökumət təşkilatlarından dəvət edilmiş qonaqların iştirakı ilə **lektoriyaların** təşkili də məqsədəuyğundur. Lektoriyada aparıcı tədbiri açıq elan etməmişdən öncə iştirakçılarla birgə Ulu Öndərin xatirəsini bir dəqiqəlik sükutla yad edib, daha sonra dahi liderin həyat və fəaliyyətini özündə əks etdirən sərgiyə və ya sənədli filmə baxa bilərlər. Aparıcı tədbiri açıq elan etdikdən sonra Heydər Əliyevin Azərbaycan xalqının tərəqqisi, dövlətçiliyimizin inkişafı üçün gördüyü işlərdən, onun xilaskarlıq missiyasından bəhs etməlidir.

Ulu Öndərin 100 illik yubileyi çərçivəsində kitabxanalarda ***"Heydər Əliyevin mədəniyyət strategiyası", "Heydər Əliyev fenomeni və milli mədəniyyətimiz", "Heydər Əliyev və kitab", "Heydər Əliyev böyük mütaliəçi kimi"*** və s. mövzularda **dəyirmi**

**masa**ların təşkili tövsiyə olunur.

***"Müasir dünya tarixinə parlaq və silinməz iz qoymuş böyük şəxsiyyət – Heydər Əliyev"*** adlı real vaxt rejimində İnternet vasitəsilə onlayn görüş və ya təqdimat formasında keçirilən **vebinar** təşkil edilə bilər. Canlı vebinarların əsas xüsusiyyəti interaktivlik və ya müəyyən vaxt rejimində məlumatları müzakirə etmək, göndərmək və qəbul edə bilmək imkanının olmasıdır. Vebinarlar istənilən vaxt və istənilən yerdə konfrans və görüşlər keçirməyə imkan verir. Hər kəs işdən ayrılmadan və ya evdə, işgüzar səfərdə, tətildə olarkən vebinarda iştirak edə bilər. Vebinar keçirmək üçün əlavə proqram və xüsusi avadanlıq quraşdırmaq lazım deyil. Bunun üçün sabit internet bağlantısına, səs qulaqlığına (qulaqlıq, mikrofon), veb kamera və vebinar yerləşdirmə sisteminə sahib olmaq vacibdir. Distant təhsilin sürətlə yayıldığı bir vaxtda kitabxanaçıların ixtisas artımında bu iş formasının böyük əhəmiyyəti vardır.

Kitabxanalar tərəfindən həyata keçiriləcək tədbir formalarından biri də regionlararası, region daxilində **onlayn metodik mühazirə-məsləhət**lərin təşkilidir. Peşəkar və tədris xarakteri daşıyan bu tədbirdə Ulu öndər irsinin kitabxanalarda təbliği məqsədilə həyata keçirilə biləcək iş istiqamətləri mövzusunda təqdimat şəklində (slayd) onlayn-mühazirə və ya mühazirələr hazırlana və nümayiş oluna bilər. Bu tədbir müzakirə və sorğu-cavab şəklində təşkil edilməli, iştirakçıları yeni təbliğat formaları ilə tanış etməlidir.

Kitabxanada həyata keçirilən digər tədbirlərdən biri də Azərbaycan xalqının yorulmaz təəssübkeşi olan qüdrətli şəxsiyyət Heydər Əliyevə, onun dövlətçilik fəaliyyətinə həsr olunmuş kitabların **təqdimat mərasimləri**nin keçirilməsidir.

Kitab təqdimatı mərasimi aparıcının 3-5 dəqiqəlik giriş sözü ilə başlayır. O, iştirakçıları salamlayaraq, Ulu Öndərin həyat yoluna nəzər salıb, daha sonra təqdim ediləcək kitabın mövzusu, təqdimatın məqsədi haqqında məlumat verməlidir. Təqdim olunan kitab proyektorun köməyilə ekranda elektron variantda göstərilə bilər.

Qeyd edək ki, kitabxanada müstəqil Azərbaycan dövlətinin memarının ölkənin inkişafı yolunda əvəzsiz xidmətlərindən bəhs edən kitabların təqdimatlarının keçirilməsi dahi şəxsiyyətin irsinin daha geniş şəkildə öyrənilməsinə öz töhfəsini verəcəkdir.

Heydər Əliyev ideyalarının gənclər arasında təbliği, həmçinin, regionda bacarıqlı və istedadlı gənclərin aşkar edilməsi, onların yaradıcılıq potensialının inkişaf etdirilməsi məqsədilə kitabxanalar şəhər (rayon) Regional Mədəniyyət İdarələri, Regional Təhsil İdarələri, həmçinin, yerli qəzetlərlə birgə məktəblilər arasında **inşa müsabiqəsi** keçirə bilərlər.

Müsabiqənin təşkili zamanı onun şərtlərinin müəyyən edilməsi olduqca vacibdir. Müsabiqənin şərtləri aşağıdakı qaydada hazırlana bilər:

- Təqdim edilən inşada Ümummilli lider Heydər Əliyevin həyatı və ictimai-siyasi fəaliyyəti əks etdirilməlidir;
- Müsabiqədə yalnız VIII-XI sinif şagirdləri iştirak edə bilərlər;
- Hər bir iştirakçı müsabiqəyə yalnız bir inşa təqdim edə bilər;
- Müsabiqəyə təqdim olunan inşalar Azərbaycan dilində yazılmalıdır;
- Müsabiqə bir mərhələdə təşkil olunacaqdır;
- İştirakçılar təqdim olunan yazıların sonunda zəruri məlumatları (soyad, ad, ata adı, məktəb, sinif, telefon nömrəsi, e-mail ünvan, ünvan) qeyd etməlidirlər;

- Təqdim olunan yazılar müəllim, jurnalist və kitabxanaçılardan ibarət peşəkar mütəxəssislər tərəfindən qiymətləndiriləcək.

Müsabiqənin şərtlərini müəyyən etdikdən dərhal sonra müsabiqənin keçiriləcəyi ünvan, tarix, həmçinin yazının təqdim olunacağı son tarix, onun elektron formada göndərilməsi və iştirakçıların onlayn qeydiyyatdan keçə bilmələri üçün elektron ünvan müəyyən olunmalıdır.

Tədbir öncəsi iştirakla bağlı müvafiq qurumlara rəsmi dəvətnamə göndərilməlidir. Müsabiqənin sonunda qaliblər diplom və hədiyyələrlə təltif oluna bilərlər.

Keçirilən tədbirin işıqlandırılması üçün tədbir haqqında press-reliz hazırlanmalıdır.

Ulu Öndərin 100 illik yubileyi münasibətilə təşkil olunacaq tədbirlər sırasında **buktreylerin** hazırlanması da məqsədəuyğundur. Buktreyler (ing. “booktrailer”) hər hansı kitab haqqında bədii formada bəhs edən kiçik videoçarxdır. Bu cür çarxların hazırlanmasında əsas məqsəd vizual vasitələrin köməyilə Ümummilli lider Heydər Əliyevə həsr olunmuş kitablara diqqətin cəlb edilməsidir. 3 dəqiqədən artıq olmayan bu “mini film”i peşəkar kameraya və ya smartfon telefonlara çəkmək olar. Öncə “Power-point”, “Cam- tasia Studio” kimi proqramlardan istifadə etməklə təqdimat yaradılır, mətn, musiqi yazılır, daha sonra montaj edilir. Belə çarxlar geniş yayılmış video hostinqlərdə, kitabxananın saytında və sosial şəbəkələrdə yerləşdirilə bilər. Buktreylerlərin hazırlanması üçün kitabın, janrın, süjet xəttinin seçilməsi, video formatın təyin edilməsi, buktreylerin proqramda yazılması və montajı, saytda yerləşdirilməsi lazımdır.

Bunun üçün Ulu Öndərə həsr olunmuş kitablar öncədən seçilməli, müəllif, kitabın sərlövhəsi, kitabdan seçilmiş qısa mətnlər,

sitatlar, kitabın üz qabığı və xülasə, ssenari hazırlanmalı və müvafiq proqramda yığılmalıdır. Buktreyleri kitabxananın saytında yerləşdirmək, sosial şəbəkələrdə paylaşmaq olar.

Heydər Əliyevin zəngin siyasi və ictimai irsinin, dövlətçilik fəlsəfəsinin, azərbaycançılıq məfkurəsinin xüsusilə formalaşan gənc nəsil tərəfindən öyrənilməsi məqsədilə kitabxanalar regionda fəaliyyət göstərən məktəblərlə birgə **buk-slem** (BOOK Slam – *ingilis dilindən tərcümədə "slam" - "itələmək", "çıxarmaq" mənasını ifadə edir)* təşkil edilə bilər.

Kitabxana konteksində buk-slem təşviq etmək məqsədilə ən yaxşı reklam kompaniyası üçün seçilmiş kitabların rəqabətidir. Bu təbliğat forması musiqi elementləri ilə də teatrlaşdırıla bilər.

Buk-slem zamanı iştirakçılar bir neçə komandaya bölünür, onların hər biri qısa müddətdə Ulu Öndər haqqında olan hər hansı kitabı ən yaxşı şəkildə reklam etməlidir. Hər kitabın təqdimatı maksimum üç dəqiqə davam edə bilər. Bu zaman vaxta hər iki təşkilatçı nəzarət edir.

Hər təqdimatdan sonra münsiflər heyəti və ya ictimaiyyət kitabı on ballıq sistemlə müxtəlif aspektlərdən qiymətləndirir. Müsabiqə yekunlaşarkən ümumi xallar hesablanır və mükafatlar verilir. Tədbirin sonunda bütün "iştirak edən kitablar" stenddə nümayiş etdirilir və ictimaiyyətə onlarla daha yaxından tanış olmaq imkanı verilir. Buk-slemin ilk növbədə gənclər auditoriyası arasında uğuru, tədbirin oyun xarakteri daşıması ilə bağlıdır.

Kitabxanalar belə tədbirləri həyata keçirməzdən bir ay öncədən həm kitabxana daxilində, həm də kitabxananın veb saytında, sosial şəbəkələrdə, yerli qəzetlərdə elan verməli, tədbirdə iştirakla bağlı müvafiq qurumlara rəsmi dəvətnamə göndərməli, tədbirin mətbuat orqanlarında işıqlandırılması üçün press-reliz hazırlanmalıdır.

Ulu Öndərin həyat və fəaliyyəti haqqında bilikləri yoxlamaq məqsədilə kitabxana **kvest** *(ingilis dilindən tərcümədə "quest" - "axtarış" mənasını verir)* oyun növündən istifadə edə bilər. Bu oyun növünün həyata keçirilməsi zamanı məktəb şagirdləri, orta və ali ixtisas təhsili müəssisələrinin tələbələri iştirak üçün dəvət oluna bilərlər. Bu zaman 4-6 nəfərdən ibarət komandalar yaradılır. Püşkatma yolu ilə hər bir komanda üçün dayanacaqlar təyin olunur. Fərdi marşrut siyahıları hazırlanır.

Axtarış marşrut vərəqəsində göstərilən ardıcıllıqla bütün mərhələlərin keçməsini nəzərdə tutur. Hər dayanacaqda komandalar mövzu üzrə suallara cavab verir və ya yaradıcı tapşırıqlar yerinə yetirirlər. Kitabxanada oxşar oyun səyahətləri eyni vaxtda bir neçə istiqamətə yönəldilə bilər: Ümummili liderin kitabxana işinə qayğısı, kitabxanada dahi şəxsiyyət haqqında mövcud olan resurslarla tanışlıq və s.

Kreativ iş formalarından birinə **virtual turları (ekskursiyalar)** misal göstərmək olar. Kitabxanalar Ümummilli liderin dövlətçilik məfkurəsinin dərindən öyrənilməsi, geniş təbliği, Azərbaycan tarixi və dilinin, mədəniyyətinin, milli-mənəvi dəyərlərinin yaşadılması istiqamətində sistemli fəaliyyət göstərən həm Bakı şəhərindəki möhtəşəm Heydər Əliyev Mərkəzinə, həmçinin digər şəhər və rayonlardakı mərkəzlərə virtual tur (ekskursiyalar) təşkil edə bilərlər. Virtual tur internetdə hər cür qapalı və açıq yerləri kompüter vasitəsilə izləməyə imkan verir. Bu zaman istifadəçi hər hansı bir məkana virtual olaraq ekskursiya edə bilər. Virtual turların təşkili zamanı görüntü, subtitrlər, eyni zamanda səs də nəzərə alınmaqla mərkəzlərdəki vəsaitlər haqqında məlumatlar öz əksini tapmalıdır. Bu virtual turlar mərkəzlərə getmək imkanı olmayan istifadəçilər

üçün xüsusilə əhəmiyyətlidir. Hazırlanmış videoçarxların kitabxananın saytında və sosial şəbəkələrdə yerləşdirilməsi və mərkəz haqqında məlumatın verilməsi daha geniş ictimaiyyətin məlumatlandırılması baxımından olduqca əhəmiyyətli ola bilər.

Mədəniyyətimizin və mədəni sərvətlərimizin təəssübkeşi olan Heydər Əliyev daima kitab və kitabxana işinə xüsusi diqqətlə yanaşmış, onu xalqımızın ümumi mədəniyyətinin əsas göstəricisi kimi qiymətləndirmişdir. Bu baxımdan da ***"Heydər Əliyev və Azərbaycanda kitabxana quruculuğu", "Heydər Əliyev və kitab mədəniyyəti"*** və s. mövzularda "**daycest**"in hazırlanması kitabxanaçılar və tədqiqatçılar üçün olduqca önəmlidir.

**Daycest** – ("digest" – ingilis dilindən tərcümədə "xülasə", "toplu" mənasını verir) son bir neçə il ərzində mövzu üzrə dövri nəşrlərdə çap olunmuş materiallar haqqında qısa xülasədən ibarət siyahı və ya çap kataloqu kimi də izah edilir. Müasir kitabxana praktikasında Elektron daycestlərin hazırlanması geniş yayılmışdır və bu gün Milli Kitabxananın təcrübəsində bu iş formasından geniş istifadə olunmaqdadır. Daycestlərin hazırlanması müəyyən bir mövzu və ya kitabxanaçıları daha çox narahat edən hər hansı aktual məsələ ilə bağlı daha dərin və ətraflı tədqiqat aparmağa, müxtəlif mənbələrdə çap olunmuş materialların (əsasən dövri nəşrlər) qısa xülasəsini əks etdirməklə onu geniş ictimaiyyətin diqqətinə çatdırmağa xidmət edir.

Milli Kitabxnanın pandemiya dövründən hazırlamağa başladığı daycestlərdə xüsusilə elektron resurslardan və məqalələrin tammətnli resurslarından geniş istifadə olunur, eyni zamanda məqalələrin geniş annotasiyası ilə müşaiyət olunan biblioqrafik təsvirlər xronoloji ardıcıllıqla əhatə olunur. Elektron daycestdə onun həsr olunduğu mövzu ilə əlaqədar geniş giriş məqaləsi də verilir.

Hazırlanmış daycesti elektron formada kitabxananın saytında, sosial şəbəkələrdə yerləşdirməklə də istifadəçilərin diqqətini bu mövzuya yönəldə bilərsiniz.

**Nümunə**

***Hüseynova, R. Qüdrətli, qalib Azərbaycanın memarı-Heydər Əliyev: Heydər Əliyev -100 /Rəfiqə Hüseynova //Səs.- 2023.- 26 yanvar.- S.3.***
***http://www.anl.az/down/meqale/ses/2023/yanvar/833184(meqale).pdf***

Məqalədə ölkəmizin 1969-cu il 14 iyul – böyük quruculuq və yüksəliş mərhələsi və 1993-cü il 15 iyun – qurtuluş və inkişaf yolundan, Vətən müharibəsindəki parlaq qələbədən bəhs olunur.

***Azadi, S. Heydər Əliyev şəxsiyyəti: Gücün, iradənin, qətiyyətin vəhdəti: 2023: Heydər Əliyev İli /Sevinc Azadi //İki sahil.- 2023.- 28 yanvar.- S.6.***
***http://www.anl.az/down/meqale/iki_sahil/2023/yanvar/833603.htm***

Məqalədə xalqı və Vətəni qarşısında misilsiz xidmətləri, müstəsna tarixi rolu olan Ulu Öndərin respublikamıza rəhbərlik etdiyi 34 il ərzində xalqımızın tərəqqisi naminə göstərdiyi xidmətlərindən bəhs edilir, Ümummilli liderin ideyaları və zəngin dövlətçilik irsi əsasında inkişaf yolunda inamla addımlayan müstəqil Azərbaycanın bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə yeni strateji nailiyyətlərə müvəffəq olması, milli dövlətçilik tariximizin növbəti şərəfli və qürurlu səhifələri yazmasından danışılır.

***Məmmədov, T. Heydər Əliyevin siyasi fəaliyyəti milli və ümumbəşəri dəyərlər sistemində...: 2023: Heydər Əliyev İli /Tahir Məmmədov //İki sahil.- 2023.- 25 yanvar.- S.3.***
***http://www.anl.az/down/meqale/iki_sahil/2023/yanvar/832963.htm***

Məqalədə qeyd edilir ki, görkəmli siyasi xadim olan Heydər Əliyevin siyasi fəaliyyətinin siyasi dəyərlər sistemində xüsusi, böyük mövqe tutması onunla səciyyələnir ki, bu fəaliyyət məhz siyasi həyatın məzmunu, dövlət və vətəndaş, toplum və fərd qarışıqlığının anatomiyasının yeniləşməsi tamamilə dərin məna və zəngin mahiyyət etibarilə yeni sosial mənzərələrinin təkmilləşməsi təşkil edir. Vurğulanır ki, Heydər Əliyev siyasi lider olaraq ənənə və yeniliyin bir-biri ilə birləşməsi kontekstində siyasi və dövətçilik fəaliyyətini yüksəklərə qaldıraraq nəzəri-siyasi fəaliyyətini öz zəngin praktika və səriştəsi ilə genişləndirərək nadir tarixi-siyasi şəxsiyyətə çevrilmişdir.

Qeyd edək ki, Milli Kitabxana tərəfindən hər il müxtəlif mövzularda daycestlər hazırlanır. Kitabxanaçılar daycest hazırlayan zaman Milli Kitabxananın saytında (www.millikitabxana.az) “Nəşrlərimiz” adlı bölmədə (https://www.millikitabxana.az/publications/publications-of-the-library) yerləşdirilmiş bu vəsaitləri nümunə götürə bilərlər.

Müasir kitabxanaların fəaliyyətinin aktual məsələlərindən biri, istifadəçilərin informasiya sorğularının təmin edilməsi üçün İnternet informasiya resurslarından istifadədir. Bu resursların siyahılarının tərtibi məqsədilə veblioqrafik göstəricilərin hazırlanmasına ehtiyac

vardır. Yubiley ili ərzində kitabxanalar ***“Tarixi şəxsiyyət – Heydər Əliyev”*** adlı **veblioqrafiya** hazırlaya və saytlarında yerləşdirə bilərlər. İnternet istifadəçilərinin informasiya mədəniyyətinin və özünə xidmətin səviyyəsinin yüksəldilməsinə təsir edən və internet informasiya resurslarını (elektron sənədləri, linkləri) əks etdirən bu cür göstərici kitabxanaçılar və istifadəçilər üçün mühüm sorğu-biblioqrafik resurs hesab edilir. Kitabxana istifadəçilər üçün mövzu üzrə faydalı olacaq resursların, saytların linklərini siyahı formasında saytda yerləşdirərək veblioqrafik nümunələr yarada bilərlər. Müvafiq mövzu üzrə veblioqrafik göstəricilərin hazırlanması zamamı kitabxanaçılar və biblioqraflar Milli Kitabxananın elektron resurslarından da geniş istifadə edə bilərlər.

Bundan başqa, kitabxanalarda Ulu Öndər haqqında olan elektron resurslardan istifadəni, Azərbaycançılıq ideologiyasının təbliği səviyyəsini təyin etmək və bu istiqamətdə oxuculara xidmətin keyfiyyətini təkmilləşdirmək məqsədilə ***“Kitabxanamızda Ümummilli lider Heydər Əliyev necə təbliğ olunur?”*** mövzusunda sosioloji tədqiqat forması olan **anket-sorğu** (saytda yerləşdirmək, yazılı şəkildə kitabxana daxilində və ya kitabxanadan kənar şifahi sual-cavab, söhbət də ola bilər) da keçirmək mümkündür.

Eyni zamanda, cari ildə Azərbaycan Milli Kitabxanasının 100 illiyi, Azərbaycan kinosunun 125, “Azərbaycanfilm” kinostudiyasının 100 illiyi və Milli Kino Günü münasibətilə də kitabxanada Ulu Öndərlə bağlı “Heydər Əliyev və Milli Kitabxana”, “Azərbaycan naminə”, “Heydər Əliyev. Dünyaya pəncərə”, “Qanun naminə - Heydər Əliyev salnaməsi”, “Dahi azərbaycanlı”, “Dahi qurucu”, “Nailiyyətlər estafeti”, “Heydər Əliyev. Vətənin keşiyində” və digər **sənədli filmlərin nümayişi** təşkil edilə bilər. Həmçinin

Ümummilli liderin kitabxanaya gəlişlərindən ibarət kadrları və çıxışlarını əks etdirən **videoçarx və fotostend** hazırlana bilər.

Bütün bu tədbir formalarını həmçinin Ulu Öndərin Azərbaycanın tarixinin, mədəniyyət və incəsənətinin, milli-mənəvi dəyərlərimizin inkişafı istiqamətində gördüyü işlərlə bağlı mövzulara da həsr etmək olar.

# Əlavələr

**Əlavə 1**

## Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi haqqında

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

2023-cü il mayın 10-da Azərbaycan xalqının ümummilli lideri, müstəqil Azərbaycan dövlətinin qurucusu, görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevin anadan olmasının 100 ili tamam olur.

Heydər Əliyev öz xalqını zamanın mürəkkəb tarixi-siyasi sınaqlarından uğurla çıxarmış və ardıcıl mübarizə apararaq onu müstəqilliyə qovuşdurmuş qüdrətli şəxsiyyətdir. Azərbaycan xalqı yeni əsrə və yeni minilliyə məhz Heydər Əliyev zəkasının işığında qədəm qoymuşdur. Davamlı yüksəliş yolunda inamla irəliləyən müasir Azərbaycan Heydər Əliyevin həyat amalının təntənəsidir.

Azərbaycana rəhbərliyinin birinci dövründə Heydər Əliyev özünün qeyri-adi idarəçilik bacarığı, polad iradəsi və yüksək vətənpərvərliyi sayəsində, uzaqgörən və məqsədyönlü qərarları ilə çox qısa müddətdə respublikamızda sosial-iqtisadi, elmi-texniki və mədəni sahələrin inkişafında böyük sıçrayışa nail olmuşdur. Tariximizin gedişatının və həyatımızın ahənginin köklü surətdə dəyişdiyi, azadlıq və müstəqillik duyğularının milli düşüncəmizdə üstünlük təşkil etməyə başladığı bu illər Azərbaycanın quruculuq salnaməsinin ən parlaq səhifələridir. Ulu Öndərin xalqın yaradıcılıq enerjisini bir məqsədə yönəltməklə tarixi yaddaşın bərpası istiqamətində atdığı qətiyyətli addımlar o dövrdə milli ruhun canlanmasına xidmət göstərmiş, özünüdərki və soy-kökə qayıdışı

təmin etmiş, müstəqil dövlət quruculuğuna aparan yolun təməl daşına çevrilmişdir.

Böyük siyasi iradəyə, sarsılmaz əqidəyə malik olan Heydər Əliyevin tükənməz dövlət idarəçiliyi istedadı onun SSRİ-nin rəhbərlərindən biri kimi çalışdığı və irimiqyaslı layihələr həyata keçirdiyi illərdə özünü bir daha parlaq surətdə təzahür etdirmişdir. Heydər Əliyev bütün varlığı ilə sevdiyi və canından əziz bildiyi doğma xalqının mənafelərini daim önə çəkmiş və respublikamızın inkişafı üçün malik olduğu bütün imkanlardan istifadə etmişdir.

Zamanın hökmü ilə ötən əsrin 90-cı illərində dövlət müstəqilliyini bərpa edən Azərbaycan Ermənistanın təcavüzü, xarici təzyiqlər və daxili çəkişmələr üzündən dünyanın siyasi xəritəsindən silinmək və dövlətçiliyini itirmək təhlükəsi ilə qarşılaşmışdır. Taleyimizin həll olunduğu ağır bir zamanda xalqın təkidli tələbinə səs verərək yenidən hakimiyyətə qayıdan Heydər Əliyev doğma Vətənin xilası naminə misilsiz fədakarlıq nümayiş etdirmiş, ölkəmizi ictimai-siyasi pərakəndəliyin və anarxiyanın məngənəsindən qurtarmış, bütün sahələrdə müşahidə olunan dərin tənəzzülün qarşısını almış, yenidən qurduğu və hər cür qəsdlərdən qoruduğu dövlətin dayanıqlı inkişaf yolunu müəyyən etmişdir. Heydər Əliyevin ölkəmizə rəhbərliyi illəri xalqımızın nadir tarixi imkandan faydalanaraq, böyük əziyyətlər bahasına öz müstəqilliyini əbədi və dönməz etdiyi taleyüklü mərhələdir.

Heydər Əliyevin zəngin həyat yolu və müstəsna fəaliyyətinin bütün mərhələləri bir-birini tamamlamış, öz xalqına sıx bağlılığın, milli dövlətçilik məfkurəsinə sadiqliyin canlı təcəssümü olmuşdur. Geniş bilik və dərin təfəkkür sahibi olan Heydər Əliyev düşünülmüş və cəsarətli qərarları ilə təkcə müstəqillik dövründə deyil, bütün dövrlərdə Azərbaycan ictimaiyyətini ən ciddi şəkildə düşündürən məsələləri uğurla həll etmişdir. Ulu Öndər cəmiyyət həyatının

müxtəlif sahələri arasında üzvi bağlılığı aydın görərək, müəllifi olduğu milli inkişaf strategiyasında ictimai, siyasi, sosial, iqtisadi, mədəni və digər sahələrdə qarşıda duran vəzifələri düzgün müəyyənləşdirmiş və məharətlə həyata keçirmişdir. Heydər Əliyevin milli neft strategiyasının uğurla reallaşdırılması nəticəsində xalqımız öz təbii sərvətlərinin tam sahibinə çevrilmiş və qısa müddətdə ölkəmizin inkişafına güclü təkan verən resurslar əldə edilmişdir. Azərbaycan Respublikasının ilk Konstitusiyasının qəbul olunması və bütün sferaları əhatə edən köklü islahatların həyata keçirilməsi, demokratik, hüquqi dövlət quruculuğu, nizami ordunun yaradılması Heydər Əliyevin Azərbaycan xalqı qarşısında müstəsna xidmətləridir. Xalqımızı vahid amal ətrafında birləşdirən azərbaycançılıq ideologiyasının formalaşdırılması, ana dilinin dövlət qayğısı ilə əhatə olunması, ictimai-siyasi, elmi və mədəni fikir tariximizin əlamətdar hadisələrinin müntəzəm qeyd edilməsi ənənəsinin yaradılması, Azərbaycanın çoxəsrlik mənəvi-mədəni irsə sahib qədim diyar və sivilizasiyaların qovşağında yerləşən tolerantlıq məkanı kimi geniş şöhrət qazanması Heydər Əliyevin mükəmməl quruculuq proqramının tərkib hissələri olmuşdur.

Dövrünün ən nüfuzlu siyasətçiləri ilə bir sırada duran Heydər Əliyev Azərbaycanın müasir simasının, xalqımızın zəngin dəyərlərinin tanıdılması və ölkəmizin beynəlxalq münasibətlər sistemində layiqli mövqe qazanmasında müstəsna rol oynamışdır. Ermənistan-Azərbaycan münaqişəsinin beynəlxalq hüququn norma və prinsipləri əsasında həlli Ulu Öndərin qarşıya qoyduğu başlıca vəzifə olmuş, ölkəmizin bütün resursları, xalqımızın potensialı tarixi ədalətin bərpası üçün səfərbər edilmişdir. Ulu Öndərin şah əsəri olan güclü Azərbaycan dövləti öz suverenliyini, müstəqilliyini qorumağa qadir olduğunu 44 günlük Vətən müharibəsində şanlı Zəfər qazanmaqla sübuta yetirmişdir.

Dövlətçilik salnaməmizdə silinməz izlər qoymuş, azərbaycanlı olması ilə ömür boyu fəxr etmiş, milli qürur və iftixar mənbəyimiz olan Heydər Əliyev bütün dünyada Azərbaycanın rəmzi kimi qəbul edilir. Xalqımız onun əziz xatirəsini həmişə uca tutur və minnətdarlıqla anır, yenidən hakimiyyətə gəldiyi günü Azərbaycan Respublikasının dövlət bayramı – Milli Qurtuluş Günü kimi qeyd edir.

Müstəqil Azərbaycan Ulu Öndərin indiki və gələcək nəsillərə əmanəti, onun zəngin və çoxşaxəli irsi isə xalqımızın milli sərvətidir. Bu müqəddəs mirası qoruyub saxlamaq hər bir azərbaycanlının şərəfli vəzifəsidir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 100 illik yubileyinin dövlət səviyyəsində qeyd olunmasını təmin etmək məqsədilə qərara alıram:

1. Azərbaycan Respublikasında 2023-cü il "Heydər Əliyev İli" elan edilsin.

2. Azərbaycan Respublikası Prezidentinin Administrasiyası Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi ilə bağlı tədbirlər planına dair təkliflərini iki ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

**İlham ƏLİYEV,**

*Azərbaycan Respublikasının Prezidenti*

*Bakı şəhəri, 29 sentyabr 2022-ci il*
*№3494*

**Əlavə 2**

**“Azərbaycan Respublikasında 2023-cü ilin “Heydər Əliyev İli” elan edilməsi ilə bağlı Tədbirlər Planı”nın təsdiq edilməsi haqqında**

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN
SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, “Azərbaycan Respublikasında 2023-cü ilin “Heydər Əliyev İli” elan edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 29 sentyabr tarixli 3494 nömrəli Sərəncamına uyğun olaraq **qərara alıram:**

1. “Azərbaycan Respublikasında 2023-cü ilin “Heydər Əliyev İli” elan edilməsi ilə bağlı Tədbirlər Planı” təsdiq edilsin (əlavə olunur).

2. Bu Sərəncamın 1-ci hissəsi ilə təsdiq edilən Tədbirlər Planında nəzərdə tutulmuş tədbirlərin əlaqələndirilməsini və icrasına nəzarəti Azərbaycan Respublikası Prezidentinin Administrasiyası həyata keçirsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV,**

*Azərbaycan Respublikasının Prezidenti*

*Bakı şəhəri, 28 noyabr 2022-ci il*
*№3623*

**Əlavə 3**

*Azərbaycan Respublikası Prezidentinin*
*2022-ci il 28 noyabr tarixli 3623 nömrəli*
*Sərəncamı ilə təsdiq edilmişdir*

**Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi ilə bağlı**

## TƏDBİRLƏR PLANI

| **Sıra №-si** | **Tədbirin adı** | **İcra müddəti** | **İcraçı orqanlar (qurumlar)** |
|---|---|---|---|
| 1. | "Heydər Əliyev İli" ilə bağlı yerli və beynəlxalq əhəmiyyətli forum, konfrans, simpozium, dəyirmi masa və seminarların keçirilməsi | 2023-cü il ərzində | Azərbaycan Respublikası Prezidentinin Administrasiyası, Xarici İşlər Nazirliyi, İqtisadiyyat Nazirliyi, Elm və Təhsil Nazirliyi, Gənclər və İdman Nazirliyi, Mədəniyyət Nazirliyi, Azərbaycan Milli Elmlər Akademiyası, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi, Diasporla İş üzrə Dövlət Komitəsi, Heydər Əliyev Mərkəzi |
| 2. | Yerli və xarici mediada Ümummilli Lider Heydər Əliyevin həyat və fəaliyyətini əks etdirən | 2023-cü il ərzində | Azərbaycan Respublikası Prezidentinin Administrasiyası, Xarici İşlər Nazirliyi, Diasporla İş üzrə Dövlət |

| | | | |
|---|---|---|---|
| | veriliş, sənədli film və videoçarxların nümayiş etdirilməsi, müsahibə və məqalələrin dərc edilməsi | | Komitəsi,<br>Medianın İnkişafı Agentliyi,<br>Azərbaycan Dövlət İnformasiya Agentliyi (AZƏRTAC),<br>"Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyəti,<br>Heydər Əliyev Mərkəzi |
| 3. | Azərbaycan Respublikasının şəhər və rayonlarında elm və mədəniyyət xadimlərinin, tanınmış ziyalıların iştirakı ilə Ümummilli Lider Heydər Əliyevin 100 illiyinə həsr olunmuş tədbirlər keçirilməsi | 2023-cü il ərzində | Azərbaycan Respublikası Prezidentinin Administrasiyası,<br>Mədəniyyət Nazirliyi,<br>Elm və Təhsil Nazirliyi,<br>Azərbaycan Milli Elmlər Akademiyası,<br>yerli icra hakimiyyəti orqanları aidiyyəti dövlət orqanlarını (qurumlarını) və qeyri-hökumət təşkilatlarını cəlb etməklə |
| 4. | Azərbaycan Respublikasının şəhər və rayonlarında "Heydər Əliyev İli"nə həsr olunmuş müxtəlif müsabiqələrin, sərgi, festival və düşərgələrin, konsert və tamaşaların təşkili | 2023-cü il ərzində | Azərbaycan Respublikası Prezidentinin Administrasiyası,<br>Mədəniyyət Nazirliyi,<br>Elm və Təhsil Nazirliyi,<br>Gənclər və İdman Nazirliyi,<br>Diasporla İş üzrə Dövlət Komitəsi,<br>Dövlət Şəhərsalma və Arxitektura Komitəsi,<br>yerli icra hakimiyyəti orqanları aidiyyəti dövlət orqanlarını (qurumlarını) və qeyri-hökumət təşkilatlarını cəlb etməklə |
| 5. | Azərbaycan | 2023-cü il | Azərbaycan Respublikası |

| | | | |
|---|---|---|---|
| | Respublikasının diplomatik nümayəndəlikləri tərəfindən "Heydər Əliyev İli" ilə bağlı tədbirlər keçirilməsi | ərzində | Prezidentinin Administrasiyası, Xarici İşlər Nazirliyi |
| 6. | Azərbaycan diaspor təşkilatları, koordinasiya şuraları, Azərbaycan Evləri və həftəsonu məktəblərində "Heydər Əliyev İli"nə həsr olunmuş tədbirlər keçirilməsi | 2023-cü il ərzində | Azərbaycan Respublikası Prezidentinin Administrasiyası, Diasporla İş üzrə Dövlət Komitəsi |
| 7. | Azərbaycan Respublikasının üzv olduğu beynəlxalq təşkilatlarda "Heydər Əliyev İli" ilə əlaqədar tədbirlərin təşkili | 2023-cü il ərzində | Azərbaycan Respublikası Prezidentinin Administrasiyası, Xarici İşlər Nazirliyi, Mədəniyyət Nazirliyi |
| 8. | "Heydər Əliyev İli" çərçivəsində idman yarışlarının və beynəlxalq turnirlərin təşkili | 2023-cü il ərzində | Azərbaycan Respublikası Prezidentinin Administrasiyası, Gənclər və İdman Nazirliyi |
| 9. | "Heydər Əliyev İli" ilə əlaqədar ölkə ərazisində müvafiq poster və bannerlərin yerləşdirilməsi, rəqəmli bilbordlarda və monitorlarda videoçarxların nümayiş | 2023-cü il ərzində | Azərbaycan Respublikası Prezidentinin Administrasiyası, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, Dövlət Reklam Agentliyi, Heydər Əliyev Mərkəzi, yerli icra hakimiyyəti orqanları |

| | | | |
|---|---|---|---|
| | etdirilməsi | | |
| 10. | Ulu Öndərin irsinə həsr olunmuş əsərlərin, kitabların və monoqrafiyaların nəşri | 2023-cü il ərzində | Azərbaycan Respublikası Prezidentinin Administrasiyası,<br>Elm və Təhsil Nazirliyi,<br>Mədəniyyət Nazirliyi,<br>Azərbaycan Milli Elmlər Akademiyası,<br>Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi |
| 11. | Ali təhsildə yüksək akademik göstəriciləri olan tələbələr üçün "Heydər Əliyev təqaüdü"nün təsis edilməsi | 2023-cü il may–iyun | Azərbaycan Respublikası Prezidentinin Administrasiyası,<br>Elm və Təhsil Nazirliyi,<br>Maliyyə Nazirliyi |
| 12. | Təhsil müəssisələrində "Heydər Əliyev dərsləri"nin keçirilməsi | 2023-cü il ərzində | Azərbaycan Respublikası Prezidentinin Administrasiyası,<br>Elm və Təhsil Nazirliyi,<br>tabeliyində təhsil müəssisəsi olan aidiyyəti dövlət orqanları (qurumları) |
| 13. | "Heydər Əliyev İli" çərçivəsində sosial dəstək tədbirlərinin və xeyriyyə aksiyalarının keçirilməsi | 2023-cü il ərzində | Azərbaycan Respublikası Prezidentinin Administrasiyası,<br>Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi,<br>Səhiyyə Nazirliyi,<br>Maliyyə Nazirliyi |
| 14. | Azərbaycan Respublikasının şəhər və rayonlarında Ümummilli Lider Heydər Əliyevin 100 illiyinə həsr olunmuş | 2023-cü il ərzində | Azərbaycan Respublikası Prezidentinin Administrasiyası,<br>Ekologiya və Təbii Sərvətlər Nazirliyi,<br>mərkəzi və yerli icra |

| | | | |
|---|---|---|---|
| | ağacəkmə aksiyalarının keçirilməsi və abadlıq işlərinin aparılması | | hakimiyyəti orqanları aidiyyəti dövlət orqanlarını (qurumlarını) və qeyri-hökumət təşkilatlarını cəlb etməklə |
| 15. | Azərbaycan Respublikasının “Heydər Əliyev – 100” yubiley medalının təsis edilməsi | 2023-cü il yanvar–may | Azərbaycan Respublikası Prezidentinin Administrasiyası, Azərbaycan Respublikasının Milli Məclisi (tövsiyə olunur) |
| 16. | Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş poçt markalarının və xatirə nişanlarının buraxılması | 2023-cü il mart–may | Azərbaycan Respublikası Prezidentinin Administrasiyası, Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi |
| 17. | Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş qızıl sikkələrin hazırlanması | 2023-cü il fevral–may | Azərbaycan Respublikası Prezidentinin Administrasiyası, Azərbaycan Mərkəzi Bankı (tövsiyə olunur) |
| 18. | Heydər Əliyev Mükafatının təqdimat mərasiminin keçirilməsi | 2023-cü il may | Azərbaycan Respublikasının Heydər Əliyev Mükafatı Komissiyası, Azərbaycan Respublikası Prezidentinin Administrasiyası |

**Əlavə 4**

## Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin kitab və kitabxana haqqında müdrik kəlamları

Kitabxana xalq, millət üçün, cəmiyyət üçün müqəddəs bir yer, mənəviyyat, bilik, zəka mənbəyidir. Ona görə də kitabxanaya daimi hörmət xalqımızın mədəniyyətini nümayiş etdirən amillərdən biridir.

***

Mən vaxtilə bu kitabxanaya dəfələrlə gəlmişəm. Amma bu gün kitabxananın astanasından keçərkən çox böyük hörmət və ehtiram hissi duyuram. Kitabxanaya, burada çalışan insanlara hörmət və ehtiramımı bildirmək istəyirəm. (Milli Kitabxana haqqında)

Kitab nəşri hər ölkənin, hər bir xalqın mədəniyyətində, ümumiyyətlə, mənəvi, ictimai həyatında çox görkəmli yer tutur. Hər birimiz ilk növbədə ancaq kitab vasitəsilə təhsil almış, elmlərə yiyələnmiş, həyatda yaşamağa, fəaliyyət göstərməyə hazırlaşmışıq. Ona görə də hər birimiz kitablara borcluyuq. Həm kitabları yazıb-yaratmaq, həm də onları nəşr etmək əsas vəzifələrimizdən biridir. Bunun üçün mümkün olan bütün tədbirləri görməliyik. Mən respublikanın prezidenti kimi bunu əsas vəzifələrimizdən biri sayıram.

***

Mən çox məmnunam ki, bu gün Azərbaycanda yazıçılarımızın, şairlərimizin və ictimai-siyasi xadimlərimizin kitablarının miniatür nəşri, şübhəsiz ki, bu mədəniyyətimiz, kitab nəşrimiz üçün çox əlamətdar hadisə, böyük nailiyyətdir.

***

Mən indi kitabxanaya xeyli kitab bağışladım. Güman edirəm ki, bunlar fondda öz yerini tutacaqdır. Bunlar cəmiyyətimiz üçün çox gərəkli olan, ayrı-ayrı mövzulara həsr edilmiş kitablardır və kitabxananın böyük xəzinəsində öz yerini tutarlar. Zənnimcə, bu təşəbbüs də davam edə bilər. Elə imkanı olan adamlar kitabxanamızı zənginləşdirmək üçün, yəqin ki, ona kitab bağışlayacaqlar.

***

Kitabxana elə bir yerdir ki, gərək, daim onun fondu genişlənsin. Çünki dünya dəyişir, yeni əsərlər, kitablar yaranır, bunlar insanlara yeni biliklər, yeni məlumat gətirir. Ona görə də bizim bu mərkəzi kitabxanamız daim yeni-yeni nəşrlərlə təmin olunsun. Vaxtı ilə biz bunu planlı şəkildə edirdik. Dövlət planı var idi, heç kəsi narahat etmədən bu kitabxananı yaradıb inkişaf etdirmişdik və indi də fəaliyyət göstərir. Ancaq gərək indi buraya hər kəs öz töhfəsini versin. Azərbaycanın bütün ictimaiyyətini bu xeyirxah işə dəvət edirəm.

***

Bağışladığım kitabları nümayiş etdirmək istəmirəm. Ancaq bizim üçün müqəddəs olan bu kitabı da (Qurani-Kərimi) bağışlamaq istəyirəm. Bilirsiniz ki, mən Səudiyyə Ərəbistanına rəsmi səfərə getmişdim. Səfər zamanı biz İslam aləminin müqəddəs yerlərini ziyarət etdik və bundan çox məmnun olduq. Orada – İslam dininin mərkəzi Məkkədə mənə Quranın nüsxələrini bağışlamışdılar. Çox nəfis şəkildə buraxılmış bu nüsxələrdən birini də Dövlət Kitabxanasına verirəm.

***

Əlyazmalar, xüsusi əhəmiyyətə malik kitablar və kitabçalar, dövri mətbuat materialları, avtoqraflar, markalar, açıqçalar, mədəniyyət və tarixi profilli arxivlər və arxiv sənədləri, not yazıları, məktublar, elmi tarixi yadigarlar və nadir nəşrlərə mədəniyyət sərvətləri statusu verilmişdir.

***

Zəngin tariximizi əks etdirən çox əsərlər var, kitablar var, maddi əşyalar var. Ancaq bunların içərisində bizim milli mədəniyyətimizi, milli-mənəvi dəyərlərimizi əks etdirən əsərlər hamısından qiymətlidir və bu gün üçün, gələcək üçün hamısından da gərəklidir.

***

Bizim ədəbiyyatımız, mədəniyyətimiz xalqımızın milli sərvətidir və intellektual mülkiyyətidir.

***

"Kitabi-Dədə Qorqud" həm də bizim etika kitabımız, əxlaq kodeksimizdir.

**Əlavə 5**

## Dünyanın və Azərbaycanın görkəmli şəxsiyyətləri, elm və mədəniyyət xadimləri Heydər Əliyev haqqında

Azərbaycan xalqının ümummilli lideri, müstəqil Azərbaycan dövlətinin qurucusu Heydər Əliyev Azərbaycan tarixinin yetirdiyi ən böyük şəxsiyyətlərdən biridir. Azərbaycanın son 30 ildən artıq bir dövrünü əhatə edən tarixi taleyi, bu illər ərzində xalqın ictimai-siyasi, iqtisadi və mədəni həyatının bütün sahələrində dirçəlişi Heydər Əliyevin adı ilə sıx bağlıdır. Heydər Əliyev rəhbərlik etdiyi bu dövr ərzində Azərbaycanı bir dövlət kimi zamanın ağır və sərt sınaqlarından çıxara bilmiş, ölkənin gələcək inkişaf strategiyasını müəyyən etmiş və onun həyata keçirilməsi üçün mühüm addımlar atmışdır. Azərbaycanın 1969-cu ildən bəri yaşayan dövrü xalqımızın tarixinə Heydər Əliyev dövrü kimi əbədi həkk olunmuşdur.

***

Heydər Əliyev tarixi şəxsiyyətdir, müstəqil Azərbaycan dövlətinin qurucusudur, bizim xilaskarımızdır. Bir-biri ilə tamamilə ziddiyyət təşkil edən iki dövlət quruluşunda Azərbaycana rəhbər lik etmişdir. 1969-1982-ci və 1993-2003-cü illər Azərbaycan tari-xində Heydər Əliyevin rəhbərliyi ilə inkişaf illəri kimi qalacaqdır. İki tamamilə fərqli bir ictimai-siyasi mühitdə Azərbaycan ən yüksək zirvələrə qalxa bilmişdir.

**İlham Əliyev,**
*Azərbaycan Respublikasının Prezidenti*

***

Hələ məktəb illərindən universitetə qədər, oradan da müstəqil

həyata vəsiqə alanlar üçün Heydər Əliyev möhkəm iradəsi, təşkilatçılıq və dövlətçilik vərdişlərinin unikal virtuozluğu ilə heyran edən, geniş erudisiyası, qibtə ediləcək işgüzarlığı, sənətə

vurğunluğu və sənət adamlarına himayədarlığı ilə örnək bir lider olmaqla yanaşı, həm də bizim gündəlik həyatımızın, məişətimizin təcridedilməz bir hissəsi idi.

***

Mənim həmyaşıdlarım həyatlarındakı Heydər Əliyev mərhələsinin bu gününü yaşayır, yenə də həyat dərsi keçir. Bu dərs onun timsalında ruhun, iradənin gücünə, insanın məğlubedilməzliyinə inam dərsidir.

**Mehriban Əliyeva,**
*Azərbaycan Respublikasının Birinci vitse-prezidenti*

***

Mərhum Heydər Əliyev Azərbaycanın xoşbəxtliyi və firavanlığı, bölgədə və dünyada sülh naminə göstərdiyi fövqəladə xidmətlərlə türk və dünya tarixində şərəfli yer tutmuşdur.

**Rəcəb Tayyib Ərdoğan,**
*Türkiyə Respublikasının Prezidenti*

***

Mərhum Heydər Əliyevin müdrik və uzaqgörən idarəçiliyi sayəsində Azərbaycan bu gün xarici siyasətində etibar və sabitlik amili kimi çıxış edən, iqtisadi inkişaf və sosial rifah yolundamöhkəm addımlarla irəliləyən, beynəlxalq birliyin nüfuzlu bir üzvü kimi etibarlı mövqeyini gündən-günə təmin etməkdə olan ölkədir. Azərbaycanın bu gün yürütdüyü uğurlu və tarazlaşdırılmış xarici siyasətinin memarı olan Heydər Əliyevi itirməyimiz tarixi və mədəni

tellərlə bir-birinə bağlanmış olan xalqlarımızı dərindən kədərləndirmişdir.

**Abdullah Gül,**
*Türkiyə Respublikasının sabiq prezidenti*

***

Uzaqgörən və istedadlı idarəçiliyi sayəsində Azərbaycanın hər sahədə inkişaf etməsini və bugünkü nüfuzlu mövqeyə çatmasını təmin edən Heydər Əliyevi şəxsən tanıdığıma görə böyük şərəf və xoşbəxtlik hissləri keçirirəm. Azərbaycanın əmin-amanlığı və çiçəklənməsi üçün göstərdiyi səylərlə yanaşı, Heydər Əliyev bütün Qafqaz bölgəsinin sülhün bərqərar olduğu bir məkana çevrilməsi istiqamətindəki fəaliyyəti ilə də daim xatırlanacaqdır. Heydər Əliyevin dəyərli töhfələri ilə başlanmış müştərək layihələr dost və qardaş dövlətlərimizi bir-birinə daha da yaxınlaşdıraraq, ölkələrimiz arasındakı münasibətlərin sarsılmaz təməllər üzərində qurulduğunu bir daha sübut etmişdir.

**Əhməd Necdət Sezər,**
*Türkiyə Respublikasının sabiq prezidenti*

***

Postsovet məkanındakı heç də bütün dövlətlərdə Azərbaycan prezidenti kimi belə müdrik, təcrübəli adamlar dərhal rəhbərliyə gəlməmişlər. Mənə elə gəlir ki, bu, təsadüfi deyildir. Ona görə təsadüfi deyil ki, bütövlükdə postsovet məkanında baş verən proseslər nə qədər mürəkkəb olsa da, dövlətlərimizin xalqlarının tələbləri bu münasibətlərdə müsbət nəticə əldə olunmasına yönəldilmişdir. Təbii ki, onlar bu problemləri həll etməyə qadir insanları irəli çəkirlər.

... Rusiya ilə Azərbaycan arasında ənənəvi münasibətlər var, biz

bu barədə çox danışmışıq və yerli rəhbərliyin, prezident Heydər Əliyevin xidmətlərini lazımınca qiymətləndirmək gərəkdir.

**Vladimir Putin,**

*Rusiya Federasiyasının Prezidenti*

***

Azərbaycanın dövlət müstəqilliyinin bərqərar olunmasına xidmət edən milli ideya azərbaycançılıqdır. Ümummilli lider Heydər Əliyev tərəfindən irəli sürülən azərbaycançılıq ideyasının hədəfi güclü, qüdrətli, demokratik Azərbaycan dövlətinin qurulmasıdır.

**Əli Əhmədov,**

*Baş nazirin müavini, professor*

***

Azərbaycan xalqının ümummilli lideri, görkəmli dövlət xadimi Heydər Əliyevin çoxillik ictimai-siyasi fəaliyyəti böyük bir epoxanı əhatə edir. Sovet rejiminin inkişafda olan dövrü (1969-1986), mürəkkəb keçid prosesləri (1987-1990), Azərbaycanın dövlət müstəqilliyi mərhələsi (1991-2003) kimi səciyyələnən 35 illik bir epoxanın aparıcı şəxsiyyətlərindən, əsas simalarından olan Heydər Əliyevin böyük siyasətdə keçdiyi çətin və şərəfli yol, sərt və mürəkkəb məqamlarda onun tutduğu obyektiv və qəti mövqe, atdığı düşünülmüş addımlar, əldə etdiyi ciddi və mühüm nəticələr, əslində, çox mənalı və ibrətamiz məktəbdir.

**İsa Həbibbəyli,**

*AMEA-nın prezidentii, akademik*

***

Heydər Əliyev irsi Azərbaycan xalqının zəngin mənəvi sərvətlər xəzinəsində xüsusi yer tutur. Zaman öz ahəngi ilə axıb keçəcək,

lakin minilliklər boyunca millətimiz və dövlətimiz dövranın sərt və gözlənilməz sınaqları ilə üz-üzə qalanda düşdüyümüz vəziyyətdən ən optimal çıxış yolunu yenə Heydər Əliyev irsində axtarıb tapacağıq.

**Yaqub Mahmudov,**

*Akademik, tarix elmləri doktoru*

***

Heydər Əliyev Cənubi Qafqazda uzun müddət ərzində ən əsas şəxsiyyət olmuşdur. Bu günlərdə Amerika Birləşmiş Ştatları və Azərbaycanın bəhrələndiyi dostluq əlaqələrinin qurulmasında və Azərbaycanın müstəqilliyinin qorunmasında onun şəxsi səyləri həyati əhəmiyyət daşımışdır. Məhz onun rəhbərliyi altında Amerika Birləşmiş Ştatları və Azərbaycan, Əfqanıstan və İraqdakı əməliyyatlar da daxil olmaqla, terrorizmə qarşı mübarizədə tərəfdaş olmuşlar. Dağlıq Qarabağ faciəsinin sülh danışıqları vasitəsilə ədalətli və uzunmüddətli həllinə nail olmaq sahəsində onun nümayiş etdirdiyi qətiyyət regionda sülh və sabitliyin saxlanmasında mühüm əhəmiyyət kəsb etmişdir. Eyni zamanda, onun mövqeyi və göstərdiyi səylər Azərbaycanın iqtisadi inkişafını möhkəmləndirən böyükhəcmli xarici sərmayələrin cəlb olun- masında əsas rol oynamışdır. Bu nailiyyətlər milyonlarla azərbaycanlının həyatını yaxşılaşdırmış və Azərbaycanın iyirmi birinci əsrə müasir dövlət kimi daxil olmasına imkan yaratmışdır.

**Corc Buş,**

*ABŞ-ın sabiq prezidenti*

***

Bu qeyri-adi şəxsiyyət Azərbaycanı çiçəklənmə yoluna gətirib çıxarmışdır. Müxtəlif görüşlərimiz zamanı, xüsusilə Dağlıq Qarabağ münaqişəsi ətrafında müzakirələr apararkən, münaqişənin sülh yolu

ilə həllində onun cəsarətini, müdrikliyini və qətiy- yətini yüksək qiymətləndirdim.

**Jak Şirak,**
*Fransa Respublikasının sabiq prezidenti*

***

Heydər Əliyev dünya qarşısında xidmətlərinə görə, beynəlxalq aləmdə tanınmış siyasət və dövlət xadimi kimi, Gürcüstanın və gürcü xalqının dostu kimi bizə əziz və doğmadır. Qəzetlərimizin “polad iradəli Əliyev” yazdığı kimi, o, həqiqətən də polad iradəyə malik nadir şəxsiyyətdir. Məhz onun cəsarəti sayəsində Azərbaycan güclü, müstəqil, firavan bir ölkəyə çevrilməkdədir. Heydər Əliyev siyasət meydanına Azərbaycanın ağır, mürəkkəb vaxtında yenidən gəlmişdir, bir çox çətinliklərə sinə gərərək Azərbaycanı böhranlı vəziyyətdən xilas etmişdir.

**Eduard Şevardnadze,**
*Gürcüstan Respublikasının sabiq prezidenti*

***

Görkəmli dövlət xadimi Heydər Əliyevin rəhbərliyi ilə müstəqil Azərbaycan Respublikası son illər dünya birliyində layiqli yer tutmuşdur. Azərbaycanda hüquqi dövlət quruculuğu, iqtisadi islahatların uğurla həyata keçirilməsi sahəsində görülən işləri diqqətlə izləyir və onları dəstəkləyirəm.

**II İohan Pavel,**
*Sabiq Roma papası*

***

Heydər Əliyev müdrik insandır.... Milyonlarla insanın taleyi həll olunduğu bir dövrdə tarix bütün dünyada tanınmış bəzi rəh- bərləri geri

qaytardı. Heydər Əliyev kimin xoşuna gəlsə də, gəl- məsə də, bu gün dünya onu tanıyır və o, Azərbaycanın nüfuzunu bütün dünyada yüksəldən qanuni liderdir.

***

... Heydər Əliyev Sovetlər İttifaqı dağıldıqdan sonra təkcə Azərbaycanda deyil, digər regionlarda da hansı proseslərin baş verdiyini və bunların nəyə gətirib çıxardığını çox gözəl bilir. Zənnimcə, bu, çox mühümdür.

**İslam Kərimov,**
*Özbəkistan Respublikasının sabiq prezidenti*

***

Azərbaycan xalqına ağır itki üz vermişdir və biz onunla birlikdə kədərlənirik. Görkəmli siyasi xadim, çox dərin zəkaya və heyranedici cazibə qüvvəsinə malik insan həyatdan getdi. Heydər Əlirza oğlu Azərbaycan Respublikası üçün, MDB-nin inkişafı üçün, Qazaxıstan və Azərbaycan xalqlarının çoxəsrlik dostluğunun möhkəmlənməsi üçün çox işlər görmüşdür.

**Nursultan Nazarbayev,**
*Qazaxıstan Respublikasının sabiq prezidenti*

***

Heydər Əliyev, mən Sizə həmişə böyük hörmətlə yanaşmışam və yanaşacağam. Çünki bir şəxsiyyət kimi, dövlət xadimi kimi bütün keçmiş Sovet İttifaqı üçün, Azərbaycan xalqı üçün, Yer üzündəki bütün türk xalqları üçün qədir-qiymətinizi bilirəm.

...Çox vacibdir ki, müstəqilliyin təşəkkül tapdığı məhz bu çətin dövrdə xalqlara Sizin kimi yüksək dərəcəli peşəkarlar, bərkdən-boşdan çıxmış insanlar rəhbərlik etsinlər. Çünki belə imkan xalqlara

min ildə bəlkə də bir dəfə verilir və onu əldən buraxmaq olmaz. Ondan elə istifadə etmək lazımdır ki, xalq bu dövrdən möhkəmlənmiş halda çıxsın və onun sonrakı nəsilləri irsən müstəqil, sözün əsl mənasında azad və məşhur insanlar olsunlar. Heydər Əliyev, Sizin kimi rəhbərlərin xidməti məhz bundanibarətdir.

**Oljas Süleymenov,**
*Qazaxıstanın Xalq yazıçısı*

***

Heydər Əliyev XX əsrin görkəmli liderlərindən biri kimimüasir demokratik Avrasiyanın yeni tarixinin bugünkü qurucularındandır.

**Çingiz Aytmatov,**
*Qırğızıstanın Xalq yazıçısı*

# Ədəbiyyat


1. **Heydər Əliyev irsinin kitabxanalarda təbliği**: metodik vəsait /tərt. ed. L.Əhmədova; elmi red. K.Tahirov; red. A.Abdullayeva.- Bakı, 2018.- 53 s.
2. **Heydər Əliyev və mədəniyyət:** Müraciətlər, çıxışlar, müsahibələr, təbriklər, məlumatlar: 3 clddə /layihənin rəhbəri və ön sözün müəl. Ə.Qarayev; tərt. ed. S.Məmmədəliyeva, T.Əhmədov.- Bakı: Nurlar, 2008.
3. **Xələfov, A**. Azərbaycanda kitabxana işinə dair Heydər Əliyev doktrinası uğurla davam edir /Abuzər Xələfov.- Bakı: [M.F.Axundov adına Az.Milli Kitabxanası], 2009.- 185 s.
4. **Xələfov, A**. Heydər Əliyev və Azərbaycanda kitabxana işi /Abuzər Xələfov.- Bakı: Azərnəşr, 2006.- 312 s.
5. **Kitabxanalarda Heydər Əliyev irsinin və azərbaycançılıq ideyasının təbliği:** metodik tövsiyələr /Azərb. Resp. Mədəniyyət və Turizm Nazirliyi, Azərb. Milli Kitabxanası; tərt. N.Alışova; ixtisas red. və burax. məs. K.M.Tahirov.- Bakı, 2013.- 59 s.
6. **Müdriklik zirvəsi** /ideya və ön söz. müəl., tərt. ed. A.Naxçı-vanlı.- Bakı: Yazıçı, 2011.- 300, [1] s.
7. **Tahirov, K.** Azərbaycanda kitabxana işinin inkişafına Heydər Əliyev qayğısı /Kərim Tahirov //Xalq qəzeti.- 2010.- 7 may.- S. 8
8. **Tahirov, K.** Böyük şəxsiyyətin kitab sevgisi /Kərim Tahirov // Xalq qəzeti.- 2016.- 4 may.- S.4.
9. **Tahirov, K.** Dünya Milli Kitabxanaları. M.F.Axundzadə adına Azərbaycan Milli Kitabxanası: dərs vəsaiti /Kərim Tahirov; elmi red. A.Xələfov; rəyçi. K.Aslan, P.Kazımi; Azərb. Resp. Təhsil Nazirliyi.- Bakı, 2013.- 211 s.

10. **Tahirov, K.** Kitaba və mütaliəyə münasibətdə Heydər Əliyev nümunəsi /Kərim Tahirov //525-ci qəzet.- 2016.- 7 may.- S.7.
11. **Tahirov, K.** Müstəqil Azərbaycanda kitabxana quruculuğunun banisi /Kərim Tahirov //Azərbaycan.- 2021.- 9 may.- S.9.
12. **Ulu Öndər Heydər Əliyevin kitab və kitab nəşri haqqında müdrik fikirləri** /tərt. ed. R.Süleymanov; red. Ə.Mirzallı; layihə. rəhb. K.Aslan.- Bakı:

# Mündəricat

Tərtibçidən........................................................................ ……....3

Azərbaycan xalqının Ümummilli lideri Heydər Əlirza oğlu Əliyev……..5

**Kərim Tahirov.** Müstəqil Azərbaycanda kitabxana quruculuğunun banisi………………………………………………………………........8

Heydər Əliyev irsinin təbliği istiqamətində kitabxanaların rolu...…….14

**Əlavələr**
**Əlavə 1:** Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı..................................................33
**Əlavə 2:** "Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi ilə bağlı Tədbirlər Planı"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı.......................................................................37
**Əlavə 3:** Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi ilə bağlı Tədbirlər Planı..........................................................................................38
**Əlavə 4:** Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin kitab və kitabxana haqqında müdrik kəlamları........................43
**Əlavə 5:** Dünyanın və Azərbaycanın görkəmli şəxsiyyətləri, elm və mədəniyyət xadimləri Heydər Əliyev haqqında.....................................46
**Ədəbiyyat**...........................................................................................54